# *Özbəkistanda fotosərgi:*
# "Qarabağda yenidən doğan günəş"

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Qarabağda yenidən doğan günəş" adlı fotosərgi açılıb.**



Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov açılış mərasimində çıxış edərək, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın Prezident İlham Əliyevin uğurlu siyasəti, ordumuzun rəşadəti ilə azad edildiyini söyləyib, işğalın acı nəticələri barədə məlumat verib. Hər il Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə özbək jurnalistlərin, operatorların Azərbaycana, işğaldan azad edilmiş bölgələrə mediaturlarının təşkil edildiyini bildirən diplomat deyib: "Ötən illər ərzində Azərbaycanda mediaturda olan qardaş ölkənin jurnalistləri ölkəmizə dair televiziya və radio verilişləri, qəzet və saytlar üçün onlarca məqalə hazırlayıblar. Özbəkistanın tanınmış fotoqrafı Husniddin Atoyev də mediaturda iştirak edərək, işğaldan azad olunan ərazilərimizdən nadir fotoşəkillər çəkib".

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev ölkələrimiz arasında olan tarixi dostluq əlaqələrindən söhbət açaraq, son illərdə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Sərgidə nümayiş etdirilən fotoşəkillərin müəllifi, tanınmış özbəkistanlı fotomüxbir Husniddin Atoyev Ermənistanın işğalından azad olunmuş Azərbaycan torpaqlarını ziyarət edərkən heyrətə gəldiyini söyləyib.

Sonda iştirakçılar tərəfindən "Turan" kitabxanasında yaradılan Qarabağ guşəsi ziyarət olunub.

Guşəyə beş dildə hazırlanmış "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" adlı ensiklopedik kitab və Özbəkistanda hazırlanmış poçt markası hədiyyə edilib.

Azərbaycan.- 2024.- 23 fevral, № 41.- S.11.